KÜRD xalqı mübariz və qəhrəman xalqdır.
Heydər Əliyev

# KÜRD DÎPLOMAT

№ 14 (526) 9-15 Aprel, Nîsan, sal. il 2023
Ji meha şûbatê sala 2003-a tê weşandin

*Həftəlik İctimai-siyasi qəzet*
*Rojnama heftename civakî û sîyasî*

Qiyməti: Hêjaye: 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.
Səbahəddin Eloğlu


Səh. 2

## Prezident İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç mətbuata bəyanatlarla çıxış ediblər


Səh. 15

## Nêçîrvan Barzanî: Enfal, qurbanîdana gelê Kurdistanê ye


Səh. 14

## Serok Barzanî: Tawanên dijî gelê Kurdistanê hatine kirin nayên jibîrkirin


Səh. 15

## Mesrûr Barzanî ji bo ewlehî û aramiya Silêmaniyê piştevaniya xwe ragihand


Səh. 14

## Kerkûkî: Ji bo rewşa Kerkûkê asayî bibe lihevkirinek hatiye kirin


Səh. 13

## KSDP Lideri: İran, YNK ekibinin hükümete dönmesi için çabalıyor


Səh. 13

## Mazlum Abdi: Suriye ordusuna katılmayı umuyoruz

## Azərbaycan və Tacikistan prezidentlərinin geniş tərkibdə görüşü olub
Səh. 2

## Mahmud bəy Səfikürdski
Səh. 12

## Sarı aşıq haqqında
Səh. 4

## Ji ser Enfala Germiyanê 35 sal derbas bûn
Səh. 15

## KÜRDLƏR VƏ KÜRDÜSTAN
Səh. 7

## PAK: 'Em Şehîdên Enfalê Bigiranî Bibîrtînin'
Səh. 16


Səh. 10

## Ağla, telli sazım ağla


Səh. 17

## Serokê Kurdistanê Xalid Begê Cibrî...



Səh. 11

## Jîyana kurdên koçber


Səh. 10

## RABE RABE!

526:1.QXD 18.04.2023 4:33 Page 2



# Prezident İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç mətbuata bəyanatlarla çıxış ediblər

Azərbaycan Prezidenti İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç aprelin 13-də Sarayevoda mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyevin bəyanatı:

- Hörmətli xanım Sədr, hörmətli cənab Komşiç, hörmətli cənab Beçiroviç.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, xanım Sədr, mənə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Mən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Siz qeyd etdiyiniz kimi, biz Sizinlə bir ay yarım bundan əvvəl Bakıda görüşmüşdük. Siz məni ölkənizə dəvət etmişdiniz və mən böyük məmnuniyyətlə bu dəvəti qəbul edib bu gün Sizin ölkənizdəyəm.

Bu gün biz geniş fikir mübadiləsi əsnasında Bosniya və Herseqovina-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı vahid mövqeyə gəlmişik. Yəni, bu əlaqələr bundan sonra yüksələn xətlə inkişaf edəcək.

Əlaqələrimizin tarixi də çox gözəldir. Xüsusilə siyasi müstəvidə aparılan məsləhətləşmələr və əlaqələr bizim münasibətlərimizi yüksək səviyyəyə qaldırmışdır. Biz beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi bütün məsələlərdə dəstəkləmişik və bu dəstək bu gün də hiss olunur. Xüsusilə işğal dövründə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı ilə bağlı Bosniya və Herseqovinanın mövqeyi bizim üçün çox önəmli idi.

Bir məsələni də xüsusilə qeyd etmək istəyirəm, iki il yarım bundan əvvəl Azərbaycan İkinci Qarabağ müharibəsi zamanı öz ərazi bütövlüyünü bərpa edəndə Bosniya və Herseqovina qətiyyətli şəkildə Azərbaycanı dəstəkləmişdir, bizim haqq işimizi dəstəkləmişdir. Bu, dostluq və



qardaşlıq mövqeyidir, buna görə biz Sizə minnətdarıq.

Azərbaycan da öz növbəsində bütün məsələlərdə, o cümlədən Bosniya və Herseqovinanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı ilə bağlı birmənalı şəkildə Bosniya və Herseqovinanın maraqlarını dəstəkləmişdir.

Bu gün isə bizim münasibətlərimizin yeni səhifəsi başlayır. Rəsmi səfər çərçivəsində aparılan danışıqlar, qeyd etdiyim kimi, yeni imkanlar açır. O cümlədən bu gün imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə gələcək inkişafımızın istiqamətlərini göstərir.

Biz müntəzəm olaraq siyasi və diplomatik müstəvidə məsləhətləşmələr aparacağıq. Eyni zamanda, iqtisadi sahədə işlər daha məqsədyönlü şəkildə aparılacaq. Birgə komissiya, yəni, Birgə İqtisadi Komissiya haqqında qərar qəbul edilmişdir. Bu gün aparılan danışıqlar əsnasında, eyni zamanda, konkret layihələr üzrə işçi qrupunun yaradılması da razılaşdırılıb və qısa müddət ərzində bu istiqamətdə addımlar atılacaq.

Strateji tərəfdaşlıq əlaqələri xüsusi əlaqələrdir. Bu, hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur. Biz bu məsuliyyətə hazırıq. Əminəm ki, Bosniya və Herseqovina və Azərbaycan sözün əsl mənasında strateji tərəfdaşlar kimi bundan sonra birgə fəaliyyət göstərəcək.

Əməkdaşlığın digər istiqamətləri ilə bağlı onu deyə bilərəm ki, ticarət dövriyyəsinin artırılması məsələsi gündəlikdədir. Biz xahiş etdik ki, bizə konkret investisiya layihələri təqdim edilsin. Biz bu layihələrə baxaq, onları incələyək və qısa müddət ərzində öz cavabımızı verək. Biz ölkənizə sərmayə qoymaqda maraqlıyıq.

Eyni zamanda, energetika sahəsində çox geniş imkanlar vardır. Azərbaycanın təşəbbüskarı olduğu Cənub Qaz Dəhlizinin uzunluğu 3 min 500 kilometrdir. İki ildən bir qədər çox müddət ərzində bu kəmər Avropaya təbii qazımızı nəql edir. Bu kəmər Bosniya və Herseqovinanın sərhədlərinin yanından keçir. Yaxşı olar ki, biz təbii qaz sahəsində də əməkdaşlığa başlayaq. Müvafiq göstərişlər artıq verilmişdir.

Bununla bərabər, hidroenergetika, eyni zamanda, bərpaolunan digər enerji növləri üzrə birgə araşdırmalar aparılacaq. Əminəm ki, bu istiqamətdə də ciddi addımların atılması mümkün olacaq. Azərbaycan xarici ölkələrə milyardlarla dollar həcmində sərmayə qoyubdur və əlbəttə ki, Bosniya və Herseqovina ilə bu sahədə əməkdaşlıq bizim üçün çox maraqlıdır.

Bununla paralel olaraq nəqliyyat sahəsində əməkdaşlığın bütün istiqamətləri geniş araşdırılmalıdır. Azərbaycan Orta Dəhliz layihəsi üzrə öz ərazisində bütün lazımi infrastruktur layihələrini icra edib, onları başa çatdırıb, eyni zamanda, digər ölkələrdə nəqliyyat infrastrukturunun yaradılması ilə bağlı böyük sərmayə qoyur. Ona görə Cənubi Qafqaz və Balkan regionları arasında nəqliyyat bağlantısı da hesab edirəm ki, bütün bölgələrimizdə yaşayan xalqlar üçün faydalı ola bilər.

Biz bu gün söhbət zamanı, həmçinin mədəniyyətlərarası dialoqun dərinləşməsi ilə bağlı fikir mübadiləsi apardıq, bizim təcrübəmizi bölüşdük. Hesab edirəm ki, bu istiqamətdə də birgə fəaliyyətin böyük önəmi ola bilər. Həm Bosniya və Herseqovina, həm Azərbaycan çoxkonfessiyalı ölkələrdir. Bizim ölkələrimizdə bir çox etnik qruplar yaşayır və bu etnik qrupların sülh, əmin-amanlıq, dostluq, qardaşlıq şəraitində yaşaması sabitlik üçün əsas şərtdir. Burada da fikir mübadiləsi, təcrübə mübadiləsi, birgə fəaliyyət, o cümlədən elm, təhsil sahələrində, qeyri-hökumət təşkilatları çərçivəsində birgə əməkdaşlıq üçün çox gözəl imkanlar vardır.

Mən bir daha bu dəvətə və qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Bir məqamı da qeyd etməliyəm ki, 1972-ci ildə - hələ Sovet İttifaqı və Yuqoslaviyanın mövcudluğu dövründə Bakı və Sarayevo arasında qardaşlaşma sazişi imzalanmışdır. O vaxtdan Sarayevo və Bakı qardaş şəhərlər sayılır. Əminəm ki, bu səfərdən sonra bizim qardaşlığımız daha möhkəm olacaq. Sağ olun.

# Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Şimali Makedoniya Respublikasının xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmanini qəbul edib.

Dövlətimizin başçısı beynəlxalq tədbirlər əsnasında Şimali Makedoniyanın Prezidenti və Baş naziri ilə olan təmaslarını məmnuniyyətlə xatırladı.

Qəbula görə təşəkkürünü bildirən Buyar Osmani ATƏT-in fəaliyyətdə olan sədri kimi Şimali Makedoniyanın prioritetləri barədə dövlətimizin başçısına məlumat verdi. Bildirdi ki, Şimali Makedoniya sədrliyi çərçivəsində "Hər şey insanlar üçün" konsepsiyasını əsas götürüb və sədrlik prosesində də bu əsasda insanlara köklənən siyasətin həyata keçirilməsi istiqamətində çalışıb. O, ATƏT-in Şimali Makedoniyaya üzv dövlət kimi verdiyi dəstəyini xatırladaraq, hazırda ölkəsinin bu təşkilatın gündəliyində duran məsələlərin həllinə öz töhfəsini verməyə çalışdığını dedi, bu baxımdan Şimali Makedoniyada daxili siyasətdə "Hamı üçün vahid cəmiyyət" konsepsiyasından çıxış etdiyini bildirdi, ölkə daxilində və



regionda postmünaqişə şəraitində barışığın təmin olunması istiqamətində həyata keçirilən layihələr barədə məlumat verdi. Bu xüsusda ölkəsinin əldə etdiyi təcrübənin Cənubi Qafqaz regionu ilə də bölüşməyə hazır olduğunu diqqətə çatdırdı.

Azərbaycan Prezidenti Şimali Makedoniyanın və ümumilikdə Balkan regionunun etnik barışıq konsepsiyasının, reinteqrasiya və inklüziv cəmiyyətin yaradılması təcrübəsinin Cənubi Qafqaz üçün də maraqlı ola biləcəyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın üç Cənubi Qafqaz ölkəsinin bir araya gələrək görüş keçirməsi ilə bağlı təklifini xatırladı.

Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında hazırda sülh prosesinin iki istiqamət üzrə həyata keçirildiyini diqqətə çatdırdı. Bu baxımdan dövlətimizin başçısı Azərbaycanın Qarabağ iqtisadi regionundan olan erməni sakinlərlə birbaşa təmasların həyata keçirilməsi istiqamətində Bakıda görüşlərin təşkil edilməsinə dair təkliflərlə çıxış etdiyini vurğuladı və bu xüsusda Azərbaycan tərəfindən xüsusi nümayəndənin təyin edildiyini dedi və onların Bakıya həm reinteqrasiya, həm də müxtəlif infrastruktur layihələrinin müzakirəsi məqsədilə dəvət edildiyini bildirdi. Prezident İlham Əliyev, eyni zamanda, Ermənistanla Azərbaycan arasında ikitərəfli əsasda sülh müqaviləsi üzrə və münasibətlərin normallaşdırılması istiqamətində danışıqların aparıldığını diqqətə çatdırdı.

Dövlətimizin başçısı dünən Ermənistan-Azərbaycan sərhədində baş vermiş insidenti qeyd edərək, bunun Ermənistan tərəfindən məqsədyönlü şəkildə törədilmiş təxribat olduğunu bildirdi.

Buyar Osmani ATƏT-in Azərbaycanda humanitar minatəmizləmə, yaşıl liman və digər praktiki layihələrə töhfə verə biləcəyini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın ATƏT ilə əməkdaşlığına praktiki müstəvidə baxdığını qeyd etdi. Dövlətimizin başçısı bu xüsusda transsərhəd çayları üzrə birgə əməkdaşlıq, humanitar minatəmizləmə, yaşıl limanlar, Orta Dəhliz kimi konsepsiyalar üzrə praktiki və praqmatik əməkdaşlıq layihələrinin icra olunması imkanlarına baxılmasının mümkünlüyünü diqqətə çatdırdı.

Görüşdə, həmçinin Azərbaycanla Şimali Makedoniya arasında nəqliyyat, enerji və qarşılıqlı maraq doğuran digər ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olundu.

526:1.QXD 18.04.2023 4:33 Page 3



# Daşkəsəndə KOB dostunun təşəbbüsü ilə sahibkarlığa və məşğulluğa dair maarifləndirmə davam edir

Aprelin 17-də Daşkəsən KOB dostunun təşkilatçılığı Daşkəsən Rayon İcra



Hakimiyyətinin, Gəncə-Daşkəsən Regional Məşğulluq İdarəsinin rayon xidmət şöbəsi və Daşkəsən Dövlət Aqrar İnkişaf Mərkəzinin iştirakı ilə Çanaqçı kəndində sakinlərlə sahibkarlığa və məşğulluğa dair maarifləndirici görüş keçirilib.

Tədbir eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 fevral tarixli 1816 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı"nın 3.1-ci bəndinin (Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin aktiv məşğulluq tədbirlərinə cəlb edilməsi işinin gücləndirilməsi) icrası məqsədi daşıyıb.

Daşkəsən KOB dostu Muraz Məmmədov çıxışında iştirakçıları KOBİA-nın xidmətləri barədə məlumatlandırıb. Sahibkarlığa və bazarlara çıxışa dövlət dəstək mexanizmləri, "Startap" şəhadətnaməsi, daxili bazar araşdırmasının aparılması, özünüməşğulluq proqramı və bir sıra mövzular barədə söz açıb. Muraz Məmmədov vurğulayıb ki, Rayon İcra Hakimiyyətinin, Gəncə-Daşkəsən Regional Məşğulluq İdarəsinin rayon xidmət şöbəsi və Daşkəsən Dövlət Aqrar İnkişaf Mərkəzinin iştirakı ilə keçirilən görüşün məqsədi koordinasiyalı şəkildə hərəkət etmək, rayonda bu sahədə olan mövcud problemlərə kompleks yanaşmaqla həllinə operativ nail olmaqdır.Görüşdə aqrar məşğulluğun artırılması, bu sahədə görülən işlər, fermerlərin inkişafı üçün həyata keçirilən layihələr, suvarma məsələləri, gübrə ilə təminat, əkin sahələrində zərərvericilərə qarşı mübarizənin təşkili, bəyan prosesinin gedişi və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb, müraciət və təkliflər qeydə alınıb.

Daşkəsən KOB dostunun təşəbbüsü ilə analoji formatda növbəti görüşlərin rayonun digər yaşayış məntəqələrində keçirilməsi nəzərdə tutulur.

# Gəncədə bəstəkar Qəmbər Hüseynlinin xatirəsi anılıb, məzarüstü abidəsinin ətrafında salınan yeni parkın açılışı olub

Gəncədə bəstəkar Qəmbər Hüseynlinin məzarüstü abidəsinin ətrafında salınan



parkın açılışı olub. Mərasimdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Aparatın məsul əməkdaşları, idarə, müəssisə və təşkilat rəhbərləri, kollec direktorları, həmçinin bəstəkarın ailə üzvləri iştirak ediblər.

Əvvəlcə bəstəkar Qəmbər Hüseynlinin məzarüstü abidəsi ziyarət olunub, üzərinə tər çiçəklər düzülüb. Daha sonra burada yeni salınan parkın açılışı olub.

Bildirilib ki, çoxsaylı şəhər sakinləri, o cümlədən şəhərimizin ziyalıları Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramova müraciət edərək, görkəmli bəstəkarın məzarının ətrafında balaca fidanlar üçün park salınmasını xahiş etmişdirlər. Edilən müraciət əsasında şəhər rəhbərliyi tərəfindən müvafiq tədbirlər həyata keçirilmiş və parkın salınması işlərinə başlanılmışdır.

Qəmbər Hüseynlinin doğum günü ərəfəsində açılışı olan park, balaca fidanlara ərmağan edilib.

Tədbir zamanı iştirakçılara görkəmli bəstəkarın həyat və yaradıcılığı barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, 16 aprel 1916-cı ildə Gəncədə dünyaya göz açan Qəmbər Hüseynli sənət aləmində xalqına xidməti həyatının əsas mənası hesab edən sənətkarlardan olub. Bütün yaradıcılığı boyu professional musiqi sənətimizin xalq tərəfindən daha çox sevilən janr və formalar hesabına zənginləşməsinə çalışıb. Bütün dünya Qəmbər Hüseynliyini "Cücələrim"lə tanısa da, bəstəkarın Azərbaycan xalqı tərəfindən sevilərək dinlənilən digər bəstələri də var. Görkəmli bəstəkarın yaradıcılığında mahnı və romanslar mühüm yer tutur.

Tədbirin davamında Gəncə Uşaq Evinin sakinləri tərəfindən Qəmbər Hüseynlinin bəstələrinə yazılan şeirlər səsləndirilib.

Məlumat üçün bildirək ki, yeni istifadəyə verilən parkda körpə və uşaqların oynaması üçün müxtəlif atraksionlar quraşdırılıb, idman qurğuları, söhbətgah və oturacaqlar yerləşdirilib.

# Talış xalqının dəyərli və mübariz qızı, İradə Məlikova 55-yaşın mübarək

Talış xalqının mübariz və dəyərli qızı İradə Şirzad qızı Məlikova bu gün respublikada özünə məxsus mövqeyi ilə tanınan vətənpərvər, ziyalı xanımlardan biridir. Elə tərcümeyi-halı da onun işgüzar, çətin maneələri tək başına dəf edən, Vətənin mübariz, qeyrətli qızı olduğunu göstərir.

O, axarlı-baxarlı, cənnət məkan Astaranın sitrusçuluğu ilə göz oxşayan Kijəbə qəsəbəsində 1968-ci ildə ziyalı ailəsində işıqlı həyata göz açıb. Atasının özünə məxsus işi ilə əlaqədar ailəsi sonralar Bakıya köçdüyündən İradə təhsilini Bakı məktəblərində alır. Orta təhsildən sonra İnşaat Mühəndislər İnstitunun məzunu kimi ixtisası üzrə müxtəlif yerlərdə məsul işdə çalışır. 2015-ci ildən isə müstəqil tədqiqatçı, araşdırmaçı olaraq respublikada fəaliyyət göstərir. İradə xanım ictimaiyyətçi kimi öz üzərində müntəzəm fəal çalışdığına görə fəaliyyəti uğurlu alınır. O, cənub bölgəsinin məktəblərində tədris edilən 1,2,3,4-cü sinif və metodika kitablarının nəşri, məzmunu, bədii tərtibatı, nəşrin mətndəki dil üslüb qaydalarının uyğunluqlarının qiymətləndirilməsində Təhsil Nazirliyin ekspertidir.



İradə Məlikova 2017-ci ildə iyun ayında təsis etdiyi ayda bir dəfə işıqlandırdığı "DODO" ictimai qəzetin baş redaktorudur. Respublikada yaşayan azsaylı xalqların dillərində çap olunan qəzetdə milli adət-ənənələr, folklor nümunələri, atalar sözləri, şerlər, ziyalıların həyat yaradıcılığı ilə bağlı maraqlı yazılar talış, rus, azərbaycan dilində oxuculara çatdırılır.

İradə xanım Bakı Beynəlxalq Multikultirazlizm Mərkəzinin üzvü kimi dövlət tədbirlərinə dəvət olunan fəal ictimaiyyətçi xanımdır. O, həvəskar bəstəkar kimi 25-ə yaxın mahnının müəllifidir.

İradə xanım mehriban, qayğıkeş, sədaqətli Rövşən bəyin həyat yoldaşıdır.

Həyat yoldaşı Rövşən Məlikov Birinci Qarabağ müharibəsində iştirak etmiş Kəlbəcər, Ağdərə, Tərtər və Ağdam rayonlarını erməni teroristlərindən azad olunmasında gedən döyüşlərdə cəsurcasına mübarizə aparanlardandır. Xüsusi təyinatlı "N" saylı hərbi hissənin baş giziri kimi Vətəninə həmişə sədaqətlə qulluq etmiş Qarabağ müharibəsinin veteranı kimi, komandanlıq tərəfindən diplom və fəxri fərmanlara layiq görülüb.

Ağdamın müdafiəsi uğrunda gedən qızğın döyüşlərdə mərmi partlayışından sarsıntı keçirsədə müvazinətini saxlayaraq döyyüşləri davam etdirmişdir. Rövşən bu gün də Vətən yolunda canından keçməyə hazır bir döyüşçüdür.

İradə Məlikova qəlbi yaralı anadır. İlk nübarı 16 yaşlı Leylası yaşadıqları mənzildə dəm qazından zəhərlənərək 13 gündən sonra dünyasını dəyişib. Bu dəhşətli faciə əzizlərini, xüsusən də İradə xanımı çox sarsıdıb. Uzun illərdir ki, İradə hələ də unudulmaz hadisənin təsiri ilə yaşayır. O, təsəllini yeganə balası, Memarlıq Universitetini bitirdikdən sonra memar Məhəmmədə tapır. Oğlu məsul işdə çalışmaqla yanaşı anasının çoxşaxəli fəaliyyətini dəstəkləməklə, bir növ onun yardımçısıdır.

Ayda bir dəfə işıq üzü görən "DODO" İradənin həyat yoldaşı Rövşənin və oğlu Məhəmmədin qayğısı ilə respublikada tanınan ictimai mətbu orqanıdır.

İradə Məlikova 15-ə yaxın kitabın müəllifi, bir çox kitabların redaktoru, tərtibatçısı, tərcüməçisidir. Yotube kanalında "İradə DODO TV" yaratmış, burada Azərbaycanın milli mənəvi dəyərlərinin dünyaya tanıdılmasında təqdirəlayiq fəaliyyət göstərir.

Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə əməyi "Şöhrət" ordeninə layiq görülmüş, artıq haqq dünyasında olan nüfuzlu şəxsiyyət Şirzad Baxşıyevin qızı İradə xanımın yaradıcılıq fəaliyyətini düşünəndə həyatda hər zaman mübariz olan Şirzad Baxşıyevə oxşar, atası kimi fəal və mübariz İradə xanımın fəaliyyəti təbiidir.

Bizdə "Diplomat" qəzetinin idarə heyəti adından İradə xanımı ad günü münasibəti ilə ürəkdən təbrik edir və ona can sağlığı, uzun önür, ailə xoşbəxtliyi və işlərində uğurlar arzu edirik.

# Samux Rayon İcra Hakimiyyətində vətəndaşların növbəti fərdi qaydada qəbulu keçirilmişdir

Samux Rayon İcra Hakimiyyətində vətəndaşların növbəti fərdi qaydada qəbulu keçirilmişdir.

Qəbulda rayon İcra Hakimiyyəti Başçısı Aparatının məsul işçiləri, aidiyyatı idarə, təşkilat, xidmət sahələrinin rəhbərləri, İnzibati Ərazi Dairələri üzrə nümayəndələr və bələdiyyə sədrləri iştirak etmişlər. Vətəndaşların qəbulu saat 10:00-da başlamış, qəbula yazılmış 8 nəfər vətəndaşın müraciəti dinlənilmişdir. Onlardan 5 nəfəri torpaq, 1 nəfəri su,1 nəfəri təbii qazın verilməsi, 1 nəfəri isə təqaüdün verilməsi ilə bağlı müraciət etmişdirlər.Dinlənilmiş müraciətlərin və qaldırılan məsələlərin həlli ilə bağlı aidiyyatı qurumların rəhbərlərinə və məsul şəxslərə yerindəcə müvafiq tapşırıqlar verilmişdir.



# SARI AŞIQ GECƏSİ

***Dünən aprelin 30-da Filarmoniyada Sarı Aşıq gecəsi keçirilmişdir. Gecədə Laçın rayonunun ziyalıları, elm və sənət adamları iştirak ediblər. İncəsənət Universitetinin professoru folklorşünas Məhərrəm Qasımlı Sarı Aşıq haqqında gecəni açaraq tamaşaçılara məlumat verərək, sözü Laçın Rayon İcra Hakimiyyətinin sədri Ramiz Cəbrayılov cənablarına verdi. Ramiz müəllim Laçın rayonunun iqtisadi-siyasi durumundan, köçkün xalqımızın durumundan, hörmətli prezidentimiz İlham Əliyev cənablarının qaçqın və köçkünlərə qayğısından, torpaqlarımızın geri qaytarilmasından danışaraq meydanı aşıqlara verdi. Aşıq qurupu aşıq Cabbar Cabbarovun rəhbərliyi ilə Səməd Vurğunun "Azərbaycan" şeri ilə səhnəni canlandırdı. Laçın aşıqları aşıq Umbay Axundovlar, Pərviz Sahil Qurbanovlar, Təbriz Sadiqov, Pərviz Axundov vətən həsrətli mahnıları ilə, vətənə bağlı şeirləri ilə gecəyə xüsusi rəng verdilər. Sarı Aşığın gələn yubleyinin aşığın doğma Vətəni Laçında keçirilməsi arzulandı.***

# SARI AŞIQ HAQQINDA



### HƏYATI

XVII əsr Azərbaycan aşıqlarından olan Sarı Aşığın doğum və ölüm tarixi dəqiq məlum deyil. Aşığın qəbri Zəngəzur mahalının, indiki Laçın rayonunun Güləbürd kəndinin, Həkəri çayının yaxınlığındadır. Qəbrin baş daşına onun xəyali şəkli də həkk olunmuşdur. Arxeoloqlar 1927-ci ildə qəbri açaraq onun XVII əsrdə yaşadığını sübut etmişlər. Sarı Aşığın həyatıyla bağlı xalq arasında "Yaxşı və Aşıq" dastanı təşəkkül tapmışdır. Sarı Aşıq əsasən bayatılarıyla tanınır. O, "bayatı qoşmaq qadın işidir" deyənlərə meydan oxuyaraq yaradıcılığında bu janra üstünlük vermişdir. Aşıq əsasən əxlaqi məsələlərə toxunan bu bayatılarında cinaslardan şox ustalıqla istifadə etmişdir.

Şeirlərində atalar sözlərini və məsəlləri tez-tez işlədən Sarı Aşıq şoxlu sayda sevgi şeirlərinin də müəllifidir.

1993-cı ildə erməni vandalları Sarı Aşığın qəbrini tamamilə dagıtmışlar.

### YARADICILIĞI

**GƏLMƏDİN**

Vədə verib mənə, gəlləm demişdin,
Gözüm qaldı intizarda, gəlmədin.
Sənsiz mənim ağlamaqdı munisim,
Mənsur kimi qaldım darda, gəlmədin.

Əlif qəddim əydi hicran məlalı,
Necə xəlq eyləmiş qaşın hilalı,
Saldı məni qəmə zülfün xəyalı,
Məni qoydun eşq barda gəlmədin.

Mən elə Aşıqəm ey vədə xilaf,
Nizəni ahundan çərx olar şikar,
Belə olar ay bimürvət, nainsaf,
Getdi əldən ixtiyar da gəlmədin.

**GÖZLƏRİN**

Əyibdi qəddimi qaşların tağı,
Qəsd eləyib şirin cana gözlərin.
Bu qədər şux baxıb aşiq öldürmə,
Heyifdi batmasın qana gözlərin.

Camalın şöləsi günəşdən əla,
Səni görən necə olmaz mübtəla,
Qəmzəyi cəlladın, xədəngin bəla,
Rəhm eləməz heç insana gözlərin.

Gözəllikdə sənsən bu gün yeganə,
Canım qurban olsun sən tək canana,
Yıxar Aşıq evin elər viranə,
Dolananda hər bir yana gözlərin.

***

Şikar edib tutdum bir şahi tərlan,
Sən etdin ağlımı zail, a Yaxşı!
Səni sevən keçər canü sərindən,
Olar camalına mail, a Yaxşı!

Məhəbbəti olan istər sazını,
Mən çəkərəm hər dəm sənin nazını.
Şəmsü Qəmər kimi görgəz üzünü,
Gün təki aləmə yayıl, a Yaxşı!

Qaşların bir oxdu, kirpiyin almaz,
Haramdan oxlasan, oram sağalmaz.
Gedər bu gözəllik sənə də qalmaz,
Əgərçi sərxoşsan, ayıl a Yaxşı!

Məni sənə aşiq etdi yaradan,
Səyrağıbı haqq götürsün aradan.
İstəyirsən xəbər tutgil Sarıdan,
Yollarında mənəm sail a Yaxşı!

**BAYATILAR**

Bu Aşıq zində deyil,
Ağlı özündə deyil,
Kim deyər haq cəmalı,
Yaxşı üzündə deyil.

***

Gözəllik soy iləndi,
Şahmar da soy ilandı,
Nəsimi tək bu Aşıq,
Yolunda soyulandı.

***

Aşıq minaya dəyər,
Qurban minaya dəyər,
İl var bir günə dəyməz,
Gün var min aya dəyər.

***

Mən Aşıqam qanlı gül,
Qanlı seviş, qanlı gül,
Yemiş bülbül bağrını,
Çıxmış ağzı qanlı gül.

***

Qarşıda yaxşı dağlar,
Köçməyə yaxşı dağlar,
Hər kəsin bir dağı var,
Aşıqı Yaxşı dağlar.

***

Aşıq Qaramanlıdı,
Xalın qara, manlıdı,
Yaxşının tənəsindən
Yenə qar amanlıdı.



**Ümumi məlumat (işğaldan öncə):**

| | |
|---|---|
| *Ümumi ərazi, [kv.km]* | *1883.00* |
| *Əhalinin ümumi sayı* | *65507* |
| *Kəndlərin sayı* | *125* |
| *Qəsəbələrin sayı* | *1* |
| *İri və orta müəssisələrin sayı* | *133* |
| *Məktəbəqədər uşaq müəssisələrinin sayı* | *3* |
| *Ümumtəhsil məktəblərinin sayı* | *101* |
| *Texniki, orta ixtisas və peşə məktəblərinin sayı* | *2* |
| *Ali təhsil müəssisələrinin sayı* | *0* |
| *Xəstəxanalar və tibb müəssisələrinin sayı* | *20* |
| *Mədəniyyət ocaqlarının sayı* | *217* |

### LAÇIN RAYONU

(İşğal tarixi: 18 may 1992-ci il)

Laçın rayonu Azərbaycan Respublikasının cənub-qərbində dağlıq ərazidə yerləşir.

69 min əhalisi olan bu səfali məkan 120 kənddən, 1 şəhərdən və 1 qəsəbədən ibarət iidi.

Laçın 1923-cu ilə qədər Abdallar, sonra isə Laçın adlanıb.

Rayonda əsasən maldarlıq, arıçılıq, əkinçilik, taxta-şalban istehsali inkişaf etmişdi.

Hazırda Laçın rayonunun əhalisi Azərbaycan Respublikasının müxtəlif ərazisinə səpələnmişdir.

### Tarixi haqqında qısa məlumat

Laçın rayonu Azərbaycan Respublikasının cənub-qərbində dağlıq ərazidə yerləşir.

Şimaldan Kəlbəcər rayonu, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, cənubdan Qubadlı, qərbdən isə Ermənistan Respublikası ilə həmsərhəddir.

1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili ilə əlaqədar Şuşa qəzası ləğv olunmuş və əvəzində Ağdam qəzası təşkil edilmişdir.

1923-cü ildə Respublika Mərkəzi İcraiyyə Komitəsinin qərarına uyğun olaraq Qubadlı, Kəlbəcər və Laçın torpaqları vahid qəza halında birləşdirilərək Kürdüstan qəzası yaradılmışdır. Qəza mərkəzi əvvəlcə Pircahan, sonra Minkənd, daha sonra isə Laçın təsdiq edilmişdir.

Laçın şəhərinin yerini Tağı Şahbazi Simurğ seçmiş və bu adı da ona o özü vermişdir.

Laçın rayonu 1924-cü ildə yaradılmış, ərazisi 1883 kvadrat km-dir. 01 yanvar 2004-cü il tarixə əhalisi 65507 nəfərdir. Rayonun mərkəzi Laçın şəhəridir, əhalisi 14500 nəfərdir.

Rayon üzrə 15310 təsərrüfat mövcuddur.

Əhalinin sıxlığı hər kvadrat km-ə 36 nəfər, hər sakinə 18 kvadrat km sahə düşürdü.

Mərkəzləşdirilmiş su təchizatı sistemindən bir gündə 4800 kub su, qaz şəbəkəsindən 173000 kub qaz, 985000 kq maye qaz istehlak olunurdu.

Laçın şəhərinin böyüyüb inkişaf etməsində ilk addımları Tağı Şahbazi Simurğ, Hüsü Hacıyev, İsmayıl Şərifov, Canbaxış Abdullayev və onlarca başqaları atmış, onların çox böyük fədakar xidmətləri olmuşdur.

İkinci dünya müharibəsi illərində 3660 nəfər Laçın rayon sakini cəbhəyə yollanmış, onlardan 2426 nəfəri geri qayıtmamışdır.

Şosse yol Laçına 1950-ci illərin əvvəllərindən çəkilməyə başlamışdır.

Respublikanın paytaxtı Bakı şəhəri ilə şosse yolla ara məsafəsi 450 km, Xankəndi dəmir yolu stansiyası ilə ara məsafəsi isə 60 km olmuşdur.

1962-ci ildən sonra isə əvvəlcə şəhərin, sonra isə kəndlərin elektrikləşdirilməsi, radiolaşdırılması və telefon xətlərinin çəkilişi işinə başlanmışdır.

Rayonun cəmi torpaq sahəsi 166488 hektar olmuşdur ki, ondan da 75781 hektarı kənd təsərrüfatına yararlı, 12102 hektarı isə əkin yeri idi. Həmin torpaqlardan 1515 hektarı sututar torpaqlardan ibarət idi.

Rayon ərazisinin 927 hektarını həyətyanı, 33205 hektarını meşə, 72000 hektarını yaylaq sahələri təşkil edirdi.

Rayonda şəhər, qəsəbə və 125 kəndin bazasında 48 şəhər, qəsəbə və kənd inzibati-ərazi vahidləri üzrə nümayəndəliklər fəaliyyət göstərirdi.

Rayonun iqtisadiyyatının əsasını heyvandarlıq və əkinçilik təşkil edirdi.

Azərbaycanın rəhbəri Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nin və Nazirlər Sovetinin "Dağ rayonlarının iqtisadiyyatını daha da yüksəltmək tədbirləri haqqında", "Laçın rayonu zəhmətkeşlərinə mədəni-məişət xidmətlərini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 16 noyabr 1971-ci il və Azərbaycan KP MK-nin bürosunun "Laçın şəhərinin 50 illiyi barədə" 6 avqust 1974-cü il tarixlərdə qəbul olunmuş qərarlar rayonun sosial-iqtisadi və mədəni həyatının, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına çox böyük güclü təkan vermiş, təsərrüfatların maddi-texniki bazası xeyli möhkəmlənmiş, orta məktəb məzunlarının güzəştlə ali məktəblərə qəbuluna xüsusi yer verilmişdir.

Şəhər və kəndlər abadlaşdırılmış, şəhərlərdə 1000 nömrəlik avtomat-telefon, televiziya ötürücüsü stansiyaları qurulmuş, bütün kəndlər başdan-başa telefonlaşdırılmış, radiolaşdırılmış, elektrikləşdirilmiş, Laçın şəhərinə və rayonun 53 kəndinə təbii qaz çəkilmişdir.

Bu diqqət və qayğı sayəsində onlarla təhsil, mədəniyyət, məişət, səhiyyə obyektləri, heyandarlıq komp

# SARI AŞIQ HAQQINDA

leksləri və sair sosial-mədəni və kənd təsərrüfatı obyektləri tikilib istifadəyə verilmişdir. Kəndlərə şosse yollar çəkilmiş, Şuşa-Laçın yolu əsaslı surətdə yenidən tikilmiş, asfalt zavodları, daş karxanaları, əhəng, pemoksol, yerli sənaye, toxuculuq sexləri istifadəyə verilmiş, Sumqayıt Alüminium və maşınqayırma zavodlarının, Bakı 1№-li tibb texnikumunun filialları açılmış, mərmər yataqları istifadəyə verilmiş, ticarət, ictimai-iaşə, mədəniyyət, rabitə və kommunal xidmətlərin şəbəkələri xeyli genişləndirilmişdir.

Görülmüş tədbirlər nəticəsində rayonda 133 idarə və müəssisə, o cümlədən 23 tikinti və 16 sənaye müəssisələri fəaliyyət göstərmişdir.

Rayonda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtombil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, cəmaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur.

1992-ci ilin mayın 18-də Laçın rayonu xəyanətin qurbanı oldu və erməni silahlı qüvvələri tərəfindən işğal edildi.

Laçının işğalı ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir.

264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır.

Bütün var dövlətlərimizi yeraltı və yerüstü sərvətlərimiz talan-qarət olmuş, torpaqlarımız hərraca qoyulmuş, ata-baba qəbiristanlıqlarımız düşmən tapdağında qalmış, rayonun 65507 nəfər əhalisi Respublikanın 59 şəhər və rayonlarına, "Taxtakörpü" qışlaqlarındakı 84 obaya məcburi köçkün düşmüşdür.

## İqtisadi-təsərrüfat potensialı

Rayonda iri dövlət müəssisələrindən olan 9 heyvandarlıq sovxozu, o cümlədən Kirov adına südçülük damazlıq sovxozu, yağ-pendir zavodu, konserv zavodu, ət tədarükü və qəbulu məntəqəsi, yun və göndəri qəbulu idarəsi, kimya birliyi, baytarlıq müalicəxanası, tikinti materialları istehsalat birliyi, ağac emalı sənayesi, yol və tikinti quraşdırma idarəsi, Sumqayıt Alüminium və maşınqayırma zavodlarının filialları, yüngül sənaye və yerli sənaye kombinatları, iki ədəd asfalt zavod, beton zavod, texniki-təchizat birliyi, suvarma sistemləri idarəsi, 23 tikinti idarəsi, mərmər, əhəng, pemoksol və toxuculuq sexləri, iki ədəd daş karxanası, avtonəqliyyat müəssisəsi, təhsil, səhiyyə, mədəniyyət, ticarət, ictimai-iaşə, rabitə, məişət, kommunal müəssisələri və digər idarə və müəssisələr fəaliyyət göstərirdi.



Ümumiyyətlə, rayonda 133 iri və xırda idarə, müəssisə və təşkilat, 52 kolxoz, 9 sovxoz və payçı kəndli fermer təsərrüfatı fəaliyyət göstərmişdir.

## Nəqliyyat infrastrukturu

Dağlıq Qarabağı Ermənistan Respublikasının Gorus rayonu ilə birləşdirən Respublika əhəmiyyətli şosse yolun uzunluğu Laçın şəhərindən Gorus rayonuna kimi 54 km, Şuşa rayonuna isə 40 km, cəmi 94 km-dir.

Respublika əhəmiyyətli Laçın-Qubadlı yolu 77 km-dir.

Rayon üzrə cəmi 2130 km uzunluğunda Respublika və yerli əhəmiyyətli yol, 92 ədəd körpü vardır.

Respublikanın paytaxtı Bakı şəhəri ilə şosse yolla ara məsayəsi 450 km, Xankəndi dəmir yolu stansiyası ilə 60 km-dir.

## Tarixi və memarlıq abidələri

Rayonun ərazisində 200-ə yaxın tarixi, mədəniyyət və memarlır abidələri, onlarla kurqan, qala tipli arxeologiya baxımından faydalı olan abidələr, çoxlu sayda qəbirüstü abidələr, stellalar, at, qoç fiqurları, süjetli daşlar, eləcə də bu ərazi çoxlu təbii sərvətləri, qiymətli minelar suları ilə zəngindir.

Bu ərazidə olan abidələrin əksəriyyəti Qafqaz Albaniyası dövrünün yadigarlarıdır. Alimlərimizin verdiyi məlumata əsasən bu ərazidə olan Qafqaz Albaniyası dövrü abidələrinin bir çoxu bizim eranın xristianlıqdan əvvəlki dövrünə aiddir.

Bu yerlərin mürəkkəb relyefi, sərt iqlimi bir çox çay keçidlərində, yolların keçilməz hissələrində körpülərin inşasına səbəb olmuşdur. Onlar əsasən bir tağlı və yaxud iki tağlı körpülərdir.

Rayonun ərazisində aşağıda adları çəkilən abidələr rayon ərazisində olan abidələrin yalnız 70%-ə qədərini təşkil edir.

1. Abdallar (Bəylik) kənd ərazisində: Həkəri çayı üzərində körpü XVIII əsr, daş qutu-dəmir dövrü, qəbiristanlıq.

2. Zabux kəndi ərazisində: Sümüklü qəbiristanlığı, XVI əsrə aid Xallanlı qəbiristanlığı.

3. Malıbəy kəndi ərazisində: qədim qəbiristanlıq.

4. Kosalar kəndi ərazisində IX əsrə aid Ağoğlan qəsri, qədim qəbiristanlıq.

5. Soltanlar (Hüsülü) kəndi ərazisində: 1761-ci ilə aid Soltan Əhməd sarayı, XIV əsrə aid qədim qəbiristanlıq.

6. Zeyvə kəndi ərazisində Soltanbaba türbəsi, Şeyx Əhməd türbəsi, Türbə, qədim qəbiristanlıq.

7. Qaraqışlaq kəndi ərazisində XI əsrə aid məscid, Dəmirovlu Pir-Məbəd.

8. Sadınlar kəndinin mərkəzində XVII əsrə aid məbəd.

9. Hacılar kəndi ərazisində: qədim qəbiristanlıq, bulaq (abidə).

10. Vağazin kəndi ərazisində məbəd.

11. Quşçu kəndi ərazisində XV əsrə aid Uşaq qalası, böyük Bulaq, Korca bulaq, Sadınlar qalacığı.

12. Mirik kəndi ərazisində XV əsə aid qala, məbəd.

13. Bozlu kəndi ərazisində qəbiristanlıq, Xaçın yalı ərazsində XV əsrə aid Xaçın daşı.

14. Əhmədli kəndi ərazisində XVII əsrə aid məbəd "Vəng" qəbiristanlığı.

15. Minkənd kəndi ərazisində XV əsrə aid Minkənd çayı üzərində ikitağlı, Abaxeyir ərazisində bir tağlı körpü. Məbəd.

16. Şeytanlı kəndi ərazisində Birtağlı körpü.

17. Qaragöl ərazisində məscid, qəbiristanlıq.

18. Hoçaz kəndi ərazisində mağara, məbəd.

19. Soyuqbulaq kəndi ərazisində Bulaq (abidə), Məbəd.

20. Zabux kəndi ərazisində körpü (1988-ci ildə dağıdılıb).

21. Güləbird kəndi ərazisində XV əsrə aid Qız qəbri abidəsi, dəmir dövrünə aid Kurqan, Qız qəbri (kurqan), orta əsrə aid Qədim qəbiristanlıq, Bayatı ustadı Sarı Aşığın qəbri.

22. Cicimli kəndi ərazisində XVI əsrə aid Məlik Əjdər türbəsi, XVII-XVIII əsrlərə aid türbə, orta əsrlərə aid Çoban daşı və qədim qəbiristanlıq.

23. Malxələf kəndi ərazisində XVII əsrə aid Xəlifə türbəsi, qədim qəbiristanlıq. Sınıq körpü.

24. Aşağı Fərəcan kəndi ərazisində X əsrə aid məbəd, Fərəcan Güləbird yolunda körpü, qədim qəbiristanlıq.

25. Sus kəndi ərazisində XVII əsrə aid bulaq.

26. Seyidlər kəndi ərazisində XVII əsrə aid bulaq, qədim qəbiristanlıq, Pircançay üzərində qədim körpü.

27. Pircahan kəndi ərazisində XVII əsrə aid bulaq, XI əsrə aid Qovur qalası.

28. Korcabulaq kəndi ərazisində məbəd.

29. Ziyrik kəndi ərazisində dəmir dövrünə aid Rizvan meşəsində kurqan.

30. Ərikli kəndi ərazisində XVI əsrə aid Qaraşaqqal türbəsi, araxışda türbə və qədim qəbiristanlıq.

31. Piçəniş kəndi ərazisində məbəd.

32. Şəlvə kəndi ərazisində məbəd.

33. Qorçu kəndi ərazisində məbəd.

34. Laçın şəhərində (1941-1945-ci illər) Böyük Vətən müharibəsində həlak olanların xatirə kompleksi.

1924-cü ildən sonra rayonda inşa olunmuş körpülər, bulaqlar, abidələr və abidə kompleksləri və s.

Qeyd: Ermənistan silahlı qüvvələrinin işğalı zamanı rayonda mövcud olan bu tarixi, mədəni və dini abidələr dağıdılmışdır.

## Görkəmli şəxslər haqqında məlumat

Laçın rayonunun təbiəti, coğrafi relyefi, havası, suyu, orada yaşamış insanların bir çoxunun igid, qəhrəman, mərd, mübariz, görkəmli şəxsiyyətlər kimi yetişmələrinə və formalaşmalarına heç şübhəsiz ki, çox böyük təsir göstərmişdir.

Məhz bütün bunun nəticəsidir ki, bir vaxtlar Laçın dağlarında at oynadan Soltan bəy erməni quldurlarının hücumlarının qarşısını qəhrəmanlıqla almış və Zabuxçayda Andranikin qoşununu darmadağın etmişdir.

İsmayıl Mirzəyev, Ocaqqulu Musayev, Abdulla Hüseynov kimi görkəmli inqilabçılar məhz Laçın rayonunda yetişmişlər.

Böyük Vətən Müharibəsində Polşa torpaqlarının azad edilməsi uğrunda gedən döyüşlərdəki şücaətinə görə laçınlı Əvəz Verdiyev Sovet İttifaqı Qəhrəmanı kimi yüksək fəxri ada layiq görülmüşdür.

O vaxtlar yerli camaatda elmə, maarifə, həvəs oyatmaq üçün 70-ci illərdə "Qabaqcıl maarif xadimi" fəxri adına layiq görülmüş, dünyalarını dəyişmiş Ələsgər Məmmədov, İdris Xəlilov, filologiya elmləri doktoru Xasay Cabbarov, fəlsəfə elmləri namizədi Salman Salahov, hazırda professor Şahbaz Muradov, tarix elmləri doktoru, professor Oktay Əhmədov, coğrafiya elmləri namizədi Malik Mirzəyev, riyaziyyat elmləri namizədi Sovet Möhbalıyev, tibb elmləri namizədi Əvəz Zeynalov, aviasiya texnika elmləri namizədi polkovnik Şamil Məmmədov, riyaziyyat elmləri namizədi Mustafa Qarayev, "Şərəf nişanı" ordenli filoloq Tofiq Nəcəfov, Baxışzadə Həsənli, Müseyib Axundov, Qurban İbrahimov, Musa Quluyev və onlarca başqa elm fədailəri gecə-gündüz əhalinin savadlanması üçün əllərindən gələni etmişlər.

Heyvandarlıqda qazanılan nailiyyətlərə görə Laçın rayonunu nəinki respublikada, hətta o vaxtlar bütün keçmiş SSRİ miqyasında tanıdan adamlar az olmamışdır.

Adi kəndli, hes bir savadı olmayan keçmiş Leninkənd sovxozunun baş çobanı Həsən Cümşüdov hələ 1936-cı ildə "Lenin" ordeni ilə, bir neçə il sonra isə onun oğlu Əkbər Cümşüdov Moskvada keçirilən Xalq Təsərrüfatı nəaliyyətləri sərgisində "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur.

70-ci illərdə Kirov adına sovxozun sağıcısı, Qəhrəman ana Şərqiyyə Vəliyeva Sosialist Əməyi Qəhrəmanı, 1980-ci illərdə isə Lenin adına sovxozun baş çobanı Cabbar Cabbarov keçmiş "SSRİ Dövlət mükafatı laureatı" adına layiq görülmüşdür.

Laçın şəhəri ilə həmyaşıd olan, ömrünün 55 ilini Laçın rayonunun ictimai-siyasi, sosial-iqtisadi həyatının inkişafına sərf etmiş, "Şərəf nişanı", "Xalqlar dostluğu", "Oktyabr inqilabı", 3 ədəd Qımızı əmək bayrağı və "Azərbaycan bayrağı" ordenləri ilə təltif olunmuş Muradxan Cabbarov bu gün də bütün çətinliklərə sinə gərərək köçkünlük dövründə öz qaynar fəaliyyətini uğurla davam etdirir.

Qarabağ torpaqları uğrunda gedən döyüşlərdə fədakarlıq göstərmiş və ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı kimi fəxri ada layiq görülmüş həmyerlilərimiz mərhum Kamil Nəsibov, İsrafil Şahverdiyev, Oktay Güləliyev, Fazil Mehdiyev, Qorxmaz Eyvazov və onlarca "Azərbaycan bayrağı" və digər ordenlərə layiq görülmüş mərd, mübariz insanlar məhz Laçın rayonunun yetirmələri olmuşdur.

Səhifəni hazırladı: ***Pərviz Pənahoğlu***

526:1.QXD 18.04.2023 4:33 Page 6



**Əvvəli ötən sayımızda**

Amma təəssüflər olsun ki, mən sizin Qalaya tamaşa edə bilmədim. Yazıq xan safürəkliliyindən rus sərdarının bu hiyləsini anlamayıb buyurdu ki, nə eybi var, Gəncəyə bir neçə gün gec gedərsiniz. Buyurun, gedək bir-iki gün bizə qonaq olun. Qalaya tamaşa edin. Sərdar bir az fikirləşdikdən sonra dedi ki, bir gecə-gündüz hüzurunuzda qonaq olmaq asandır. Bu söhbətdən sonra onlar qoşunla Qalaya tərəf üz qoydular. Xan bağı deyilən yerə çatarkən sərdar qoşuna əmr etdi ki, bu qədər adamın şəhərə girməyinə ehtiyac yoxdur. Bir neçə yüz nəfər mənimlə Qalaya gəlsin, qalan qoşun biz geri qayıdanacan burda gözləsin. Rus sərdarı neçə yüz əsgər götürüb, Qalaya xanın hüzuruna gəldi. Qalaya daxil olan kimi sərdar dönüb rusca öz əsgərlərinə əmr edərək sıraya düzdü. Xan soruşdu ki, nə üçün əsgərləri sıraya düzdünüz. Sərdar buyurdu ki, əsgərləri sizin şərəfinizə sıraya düzdüm. Bundan sonra sərdar rusca əsgərlərə nə dedisə, onlar tələsik yüyürüb bürc və barı

ki, mənə kömək əlinizi uzadasınız. Bundan sonra cənabınıza tabe oluram. Xan həmin ərizəni bir Qur'ani-Şərifin arasına qoyub, onu da möhürləyib, şaha göndərdi. Bunun da mənası o idi ki, and olsun bu Qur'ani- Şərifə ki, cənabınıza tabe olacağam.

Şahənşah ərizəni alan kimi dərhal 12 minlik qoşun toplayıb, topxanası ilə birlikdə İbrahimxəlil xanın oğlu Əbülfət ağanın sərkərdəliyi ilə xanın köməyinə göndərdi. Bu tərəfdən rus sərdarını bu əhvalatdan xəbərdar etdilər. Sərdarın əmri ilə həmin saat gecə vaxtı bir neçə yüz əsgər toplanıb, xəbər gətirən adamın sərəncamına verildi.

Qoşun aşağı bürcün altında yerləşən lağımdan keçərək Şuşakəndə gəldi. Qoşunun başçısı Şuşakənddən bir neçə erməni bələdçisi götürüb dağların ətəkləri ilə gizlincə İbrahimxəlil xanın məskən saldığı yerə tərəf hərəkət etdilər. Qoşun xanın səngərlərinə çatarkən İbrahimxəlil xan çadırında öz dövlət əyanlarının əhatəsində əyləşib, söhbət edə-edə qızıl qəlyan çəkirdi. Bu məclisdə mənim, yeni,

ildə «Tarixi-Qacariyyə»də və «Qarabağ tarixi»ndə şərh edilir. Oxumaq istəyənlər həmin tarix kitablarına müraciət edə bilərlər. Bizim məqsədimiz isə bu illərdə erməni tayfası ilə müsəlmanlar arasında baş vermiş əhvalatları (iğtişaş və qırğınları) bəyan etməkdir. Elə ki rus dövləti Qafqaz məmləkətinə hakim oldu, hər yerdə sakitlik yarandı. Heç bir millətin bir-biri ilə işi yox idi. Hər kəs öz işi ilə məşğul idi və hər millət öz qanunu ilə məbədlərində ibadət edirdilər. Heç bir millət bir-birinə hücum etmirdi. Xüsusən, ermənilərlə müsəlmanlar arasında çox vaxt məhəbbət və dostluq olub, bir-biri ilə alış-veriş edirdilər. Xanlıqlar zamanında ermənilər və müsəlmanlar arasında belə mehribançılıq var idi. Hətta İbrahim xan erməni məliklərindən Məlik Şahnəzərin qızı Hurizad xanımı özünə kəbinli arvad etmişdi. Həmin Hurizad xanımın Böyük məscidin həyətində hal-hazırda vaqviyyatı var. Əfsuslar olsun ki, erməni tayfasının indi təbiəti dəyişib. Zahirləri batinləri ilə bir deyil. Zahirən özləri dost kimi göstərsələr də, batinləri ədavətlidir. Özləri də görürlər ki,

qundaqsaz İsaballı adlı bir erməni başqa ermənilərlə birlikdə müsəlmanların şəbeh gətirməyini təqlid edərək istehza edərlərmiş. Müsəlmanlar hadisədən xəbərdar olan saat dükan-bazarı bağlayıb Xan bağına getdilər və şəhərin hakimi Cəfərqulu xanı Qalaya gətirdilər. Şəhərdə böyük bir qovğa üz verdi. Böyük-kiçik hamı hakim tərəfə üz qoydular. Bu haldan çox qorxuya düşmüş hakim nə qədər istədi ki, müsəlmanları sakitləşdirsin, mümkün olmadı. Axır, bir bəhanə ilə aradan çıxıb evinə getdi. İğtişaş get-gedə şiddətlənirdi. Onun qarşısını almaq üçün Şuşakənddə olan digər şəhər hakimi Ala bəyi gətirdilər. Ala bəy atlı meydana daxil olan kimi xalq onu araya aldı. Mirhadi adlı bir seyid irəli gəlib Ala bəyi çəkib atdan yerə saldı və vurub baş-gözünü yardı. Xalq üz qoydu ermənilərin üstünə. Ermənilər tamam dükandan çıxıb qaçdılar. Kimisi dükanı bağladı, kimisi bir qapısını örtdü, kimisi də buna fürsət tapmayıb ayaqyalın üz qoydular qaçmağa. Bir para uzaqgörən müsəlmanlar qaçan ermənilərin bir parasını evlərinə



sonra əyləşdilər. Hava soyuq olduğuna görə bir az quyunun kənarında oturub qızındıqdan sonra xurcunlarında

* * *

Hicri 1321-ci (miladi 1903) il tarixində müsəlman kəndindən olan Məhəmməd və Salman adlı iki qardaş öz yüzbaşılarına etiraz əlaməti olaraq qaçıb meşənin içində kömür yandıran Aleksan adlı dağlı bir ermənin yanına

# 1905-06-cı illərdə erməni-müsəlman davasında Kürd Xalqının rolu



üstünə çıxaraq şeypur çalmağa başladılar. Həmin saat Xan bağı tərəfdən Kəhrab deyilən yerdən də şeypur çalındı. Xanı təəccüb götürdü. Çox keçmədi arxada qalan əsgərlər də gəlib Qalaya daxil oldular. Sərdar xanın qabağına gəlib dedi ki, biz artıq bu Qalanı zəbt etdik. Əgər sən rus padşahına bu qala və bütün dövlətinlə tabe olursansa, hakimiyyət sənin əlində olacaq. Yox əgər tabe olmaq fikrində deyilsənsə, sənə üç saat möhlət veririk, imarətindən nə ehtiyac duyursan, götürüb istədiyin yerə gedə bilərsən. Xan bu xəyanətdən çox təsirlənib rus sərdarına təhqiramiz sözlər dedi. Rus sərdarı buyurdu ki, artıq danışmaq lazım deyil. Bu şəhəri biz tutmuşuq və sənə üç saat möhlət vermişik. İstədiyini edə bilərsən.

Yazıq xan əlacsız qalıb öz imarətinə gəldi. Bacardığı qədər lazım olan əşyaları, övrət-uşağı götürüb bütün atlı-piyada nökər və qoşunları ilə Qaladan çıxdılar. Qalanın yaxınlığında üstü hamar olan qayalıq yerdə çadırlar qurub məskən saldılar. Çadırlarda və alaçıqlarda yaşayan xanın və onun adamlarının əmin-amanlığını təmin etmək üçün ətrafda səngərlər qazdılar. Dərhal xanın əmrilə münşilər İran şahı Fətəli şaha bir ərizə yazdılar. Ərizədə xan yazırdı ki, rus sərdarı hiylə ilə mənim başıma belə işlər gətirdi. Mən indi bütün adamlarımla çıxıb Qaladan kənar bir dağın üstündə məskən salmışam. Sədaqətlə bu ərizəni hüzurunuza göndərirəm

bəndeyi-həqir Nəvvab Mir Möhsünün ana babası mərhum Əmiraslan bəy də iştirak edirdi. Birdən xana xəbər verdilər ki, rus qoşunu sənin üstünə gəlir, Xan qalxıb neçə dəfə təkrarən dedi:

— Ey kafir, ey kafir!..

Dərhal əmirli atlılarından birisi bir güllə atıb əsgərin birini öldürdü. Bu zaman rus əsgərləri dərhal birlikdə onların üzərinə atəş açdılar. Güllələrin bir neçəsi İbrahim xana dəydi və kürsüdən yıxıldı. Xanın övrət-uşağı tökülüb onun bədənini qucaqlayıb ağlaşmağa başladılar. Atılan güllələrdən neçəsi onlara, əyanlara və nökərlərə dəydi. Qalanlar isə hərə bir şey götürüb, müxtəlif tərəflərə qaçdılar. Əmiraslan bəy dərhal mərhumə Gövhər ağanı və qızıl qəlyanı götürüb qaçdı. Məzlum xanın ev əhli və uşaqlarından salamat qalanlarını onun adamları götürüb qırğından xilas etdilər. Əmiraslan bəy isə Gövhər ağanı möhkəm və təhlükəsiz bir yerdə gizlədi. Sonra isə gəlib bir az yemək əldə edib, Gövhər ağaya gətirdi. Gövhər ağa gözü yaşlı istər-istəməz bir neçə loxma yedi. Əmiraslan bəy Gövhər ağanı birtəhər sakitləşdirib, sonra öz evinə gətirdi.

Digər tərəfdən İbrahim xan öldürüldükdən sonra onun atlı dəstələri də dağılıb hərəsi bir tərəfə getdi. Hadisə yerindən uzaqlaşan xan atlıları Nabatxan deyilən yerdə Əbülfət ağanın qoşununa rast gəldilər. Əbülfət ağa gördü ki, bir neçə atlı sürətlə hərəkət edirlər. O, nökərlərinə buyurdu ki, o atlıları qaytarıb, onun hüzuruna gətirsinlər. Atlılar İbrahim xanın başına gələn əhvalatı eşitcək hönkür- hönkür ağladıqdan sonra qoşunla ordan geri, İrana qayıtdı ki, şahdan yeni fərman sadir ola.

Xülasə, bu əhvalat ətraflı şək-

təbiətlərinin bu cür ədavətli olmasından həmişə zərər çəkirlər.

**BAĞIRQAN DAĞI**

Bu halda bir neçə gəlmə erməni tayfasının törətdiyi əhvalatlardan yazmaq lazımdır. Əvvəla, mərhum İbrahim xanın hökmranlığı zamanında Pənahabad, yəni Şuşa qalasının şərq tərəfində Bağırqan dağı deyilən yerdə bir uca qaya vardı. Həmin dağda öz təbəələri ilə Avan Koxa adlı bir erməni yaşayırdı. Avan Koxa öz təbəələrinə buyurmuşdu ki, harda əllərinə müsəlman düşsə, tutub onun hüzuruna gətirsinlər. Avan Koxanın əmrilə tutulmuş müsəlmanı çılpaqlayıb üzü üstə yerə yıxardılar. Sonra onun arxasının dərisindən dörd barmaq enində bıçaqla boynundan qom ətinəcən iki tərəfdən xətt çəkdirər və dərinin ucunu aşağı əydirilmiş ağacın qüvvətli bir budağına bənd edib budağı buraxırdılar. Ağacın budağı qüvvətlə yuxarı qalxanda o yazıq müsəlmanın dərisi boynuna qədər soyulardı və onun bağırtısı o dağa düşərdi. Bu əhvalatı görənin və eşidənin də bağrı qan olardı. Buna görə də həmin qayaya «Bağırqan dağı» adı verilmişdir.

**QƏDİMDƏ ERMƏNİ-MÜSƏLMAN DAVASI**

1260-ci (miladi 1844) il tarixdə






gətirib, mühafizə edib sakitləşdirdilər. Cahil müsəlmanlar isə ermənilərin vurub baş-gözlərini yardılar. Xülasə, şəhərin hakimi birtəhər müsəlmanları sakit edib erməniləri böyük fəlakətdən qurtardı.

* * *

Hicri 1294-cü (miladi 1877) ildə rus-osmanlı müharibəsində rus dövlətinin ordu başçılarından bir neçəsi erməni tayfasından idi. Həmin ermənilər Qars şəhərini tutarkən düşmənçiliklə nə qədər müsəlman kitabları və Qur'anı-Şərif əllərinə keçirdisə, yandırırdılar.

* * *

Həmin tarixdə ermənilərin böyük sənətkarları İrəvan şəhərində Üçkilsədə (Eçmiədzin) maşın tərtib edib, 9 milyon qəlp eskinas pul kəsdilər. Dövlət xəbərdar olub, qəflətən tökülüb həmin pulu və maşını müsadirə edib, pulkəsənləri və kəsdirənləri tutub cəzalandırdı.

* * *

Hicri 1321-ci (miladi 1903) il tarixində müsəlman kəndindən olan Məhəmməd və Salman adlı iki qardaş öz yüzbaşılarına etiraz əlaməti olaraq qaçıb meşənin içində kömür yandıran Aleksan adlı dağlı bir ermənin yanına gəldilər. Həmin iki qardaş erməni ilə hal-əhval etdikdən

gəldilər. Həmin iki qardaş erməni ilə hal-əhval etdikdən sonra əyləşdilər. Hava soyuq olduğuna görə bir az quyunun kənarında oturub qızındıqdan sonra xurcunlarında olan yeməyin hamısını çıxarıb, yarısını erməniyə verdilər, qalanını isə özləri yedilər.

Əhvalatdan xəbər tutan bu iki cavanın ata-anası hər gün yemək və çörək gətirib həmin kömürxanada onlara verirdilər. Bu əhvalat bir neçə gün belə davam etdi. Yenə bir gün onlara dadlı yeməklər gətirdilər. Cavanlar yeməyi yarıya bölüb, yarısını erməniyə verib, yarısını özləri yeyib, isti vura-vura yuxuya getdilər. O məlun erməni özündən savayı, qabaqcadan daha iki erməni gətirib orda gizlətmişdi. Elə ki cavanlar yatdı, ermənilərin hər üçü durub əllərində balta yavaş- yavaş gəlib, o biçarələrin başlarını iki parə etdilər. Cavanlar bircə dəfə çığırıb canlarını tapşırdılar. Sonra o məlun ermənilər o biçarələri üryan edib, paltarlarını və ciblərini soyub, bədənlərini kömür quyusuna atıb yandırdılar.

Yenə bu günlərdə Əfətli kəndinin müsəlmanlarından iki nəfər şəxsi Ballıca kəndinin erməniləri hiylə ilə tutub öldürmüş və meyidlərini yandırmışlar.

* * *

Hicri 1321-ci il (miladi 1903) tarixdə rus-yapon müharibəsi zamanı bir qarabağlı erməni yapon dövlətinə dəyəri bir milyon yarım manat olan bir gəmi peşkəş elədi. Bu zaman rus dövlətinin başı müharibəyə qarışdığına görə ermənilərdən çağırılmış əsgərlər dövlətə xəyanət edərək dəstə-dəstə silahları ilə bərabər, Osmanlı və İran dövlətlərinə qaçdılar. Qərəz, öz məzhəblərinin qaydası ilə andlarına yalan çıxıb müxtəlif xəyanətlər edirdilər.

**Ardı var**

**Səhifəni hazırladı: Tahir Süleyman**

526:1.QXD 18.04.2023 4:33 Page 8



# Kurdistan yek ji dergûşên herî kevin a şaristaniyê ye

Li cîhanê gelek ciyên kevin yên şaristaniyê hene. Ji wan hinek ev in: Filistîn, Misir, Yûnanîstan û Mezopotamya.

Mezopotamya axa navbera çemên Dîcle û Feratê ye (mezo: navber, potam: çem).

Þaristaniya vê herêmê digihîje 8-9 hezar salên berî zayinê (b.z.).

Hin cîranên kurdan yên dîrokî asûrî, faris, ermenî û romayî bûne.

Bi qasî ku tê zanîn cara pêşî sumeriyan qala kurdan kiriye. Wan ji welatê kurdan re gotiye:

KAR-DA-KA (*)

Ev gotin 2000 sal b.z. li ser kevirekî hatiye nivîsîn. Ev kevir li Mezopotamyayê li kavilekî sumeriyan hatiye dîtin.

Welatê Kardakan diket navbera Bedlîs û Wanê.

Asûriyan jî ji kurdan re gotiye kardox û ji welatê wan re jî gotiye Kurtiye.

Piştre navê kurdan di belgeyên dîrokî de wek kurtî, kirtî, kardox, kardoç, gutî, med, kardo û kardukhatiye nivîsîn.

Li gor dîroknasan kurd arî ne û neviyên medan in.

Gotina arî ji sanskrîtî (**) tê, maneya wê jî binijad, esilzade, yên xweşik, yên baş û rind e. Navê zimanê ariyan aryavaşa bû. Navê welatê wan Aryavarta (Welatê Arya/Warê Arya) bû. Welatê wan başûr û rojhilatê Derya Qezwînê (Xezar) bû.



Koça Hindo Ewropiyan

(*) Navê KARDAKA li ser kevir bi awayê KRDK hatiye nivîsîn. Zimannas gava ku nivîseke ku tenê bi tîpên dengdar hatibe nivîsîn, A-yekê (dengekî di navbera A û E'yê de ye) dixin navbera hemû tîpan. Loma KRDK dikare KURDIK, KARDOK, KURDOK û hwd. be.

